**UOT 780.6.7.04.**

**Emilya Emil qızı Yanakiyeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Doktorant**
**E-mail: emilio2019@inbox.ru**

# ŞƏRQ ZƏRB MUSİQİ ALƏTLƏRİNİN BƏDİİ-DEKORATİV XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Məqalədə Şərq çalğı alətləri sırasında zərb alətlərinin bədii tərtibat xüsusiyyətləri haqqında konkret olaraq qısa məlumat verilmiş, onların quruluşu və naxışlanma xüsusiyyətləri haqqında lakonik informasiya yer almışdır. Nağara, dümbək, laqqutu, dəf kimi musiqi alətlərindən bir çoxunun bədii quruluşu açıqlanmış, nümunələr üzərində mövzunun açıqlanması üçün qısa təhlillər aparılmışdır.

**Açar sözlər:** musiqi, bəzək elementləri, dekorativ tərtibat, zərb alətləri

Təsviri sənətin bütün sahələrində olduğu kimi, dekorativ-tətbiqi sənət əsərləri qədim zamanlardan günümüzədək xalqın həyatını, onun adət və ənənələrini özündə əks etdirir. Təsadüfi deyildir ki, Azərbaycan xalq sənətində istifadə edilən bütün bəzək elementləri real mühitdən alınmış, insan, heyvan, quş, bitki və məişət təsvirlərindən ibarətdir. Bunlara eyni zamanda xalq çalğı alətlərinin daxil olması təsadüfi hesab edilə bilməz. Musiqi alətləri xalqın mədəniyyətinin mühüm göstəricilərindən biridir. Tarixi çox qədimlərə uzanan milli zərb musiqi alətləri funksiyaları kimi, dekorativ formaları ilə də hər zaman diqqəti cəlb etməkdədir. Hətta onların xalçanın bəzək elementlərində ornament kimi istifadə olunması faktı da mövcuddur. Bunlardan təbil, nağaranın müxtəlif növləri, dümbək, saxsı qablar, müxtəlif növlü laqqutular, qumrovlar, qavallar, dəflər və digərləri sadəcə musiqi mədəniyyətinin inkişafında deyil, həmçinin dekorativ həlli ilə tətbiqi sənətin müxtəlif növlərində həm istifadəsinə, həm də diqqəti cəlb edən quruluşuna görə tətbiqi sənətlərin də inkişaf xəttində özünəməxsus rol oynamışdır.

Kiçik mənasını verən cürə nağaralar hər nə qədər sadə formada həll olunsa da onun fərqli ağac növlərindən həyata keçirilmiş silindrik forması, üzərinə keçirilmiş keçi və ya qoyun dərisi ilə, ətrafına sarılmış kəndirlər ilə sanki keçmişdən gələn, qədim zamanları günümüzə daşıyan öz ənənəviliyi ilə heç bir zaman dəyişim ehtiyacı duyulmayan ənənəvi dekorativliyi ilə diqqəti cəlb edir. Bu cür sadə forması ilə də əsasən xalçalarda meydana gətirdiyi ornament də öz sadəliyi ilə mədaxillərdə, ara haşiyələrdə istifadə olunmuşdur.

Qeyd olunanları böyük kos nağaralara da aid etmək olar. Ölçüsünə görə hər nə qədər digər nağaralardan xeyli böyük olsa da cürə nağaranın forması, eləcə də ornamentə daxil olması eynidir. Buradakı fərq onun bizim bugünkü mövzumuza çox da aid olmayan səsi və ölçüsü ilə əlaqədardır. Forma sadəliyi heç də qeyd olunan nağaraların diqqətsiz qalan dekorativliyə malik olduğunu qeyd etməyə əsas verir. Məsələn, böyük kos nağaraların bəzilərində ağac fakturanın nağaranın ipliyinə, üzərindəki dərisinin rənginə görə harmonik həllini sübut edən çox saylı nümunələr vardır. Müəllif nağaraların isə üzərində ağac keçidlərlə verilmiş səthdə pəncərələr daxilində meydana gələn altı guşəli ulduz elementlərinin verilməsi, ağac fakturanın açıq və tünd rəng dəyərlərinin uğurla sintez edilməsi fərdi usta səriştəsini nümayiş etdirir.

Türkiyənin davul adı ilə Azərbaycan nağaralarına demək olar ki, olduqca yaxın olan bu musiqi alətinə əsasən qədim Şumer və Het relyeflərində rast gəlinir. Ümumiyyətlə bütün türkdilli xalqların tarixinin hər bir dövründə təməl çalğı aləti olaraq bilindiyinə görə hər bir bölgədə fərqli dekorativliyi ilə diqqəti cəlb edir. Məsələn, Türkiyənin Iğdır bölgəsinə aid olan qoltuq nağaralardan birinin diqqət etdiyimizdə onun səthinin ağ dəri ilə tamamilə örtülərək yaxın rəng harmoniyasında meydana çıxdığını görürük.

Qoşa nağaralar dekorativ tərtibatına görə bundan əvvəlki musiqi alətlərindən daha zəngin şəkildə dekor edilərək qarşımıza çıxır. Bu səbəbdən onun stilizə olunmuş formasının müasir Azərbaycan ornamentinə daxil olaraq xalçaların haşiyələrində istifadəsi də məntiqlidir. Qeyd edilən musiqi aləti forma və dekorativ tərtibat baxımından olduqca müxtəlifdir. Bunlardan bir nümunəni nəzərdən keçirərkən onların qızılı incə haşiyə ilə işlənmiş dayaq altlıq üzərində bir qədər maili formada yerləşdirildiyini görürük. Tünd ağacın üzərində əlavə bəzək elementindən istifadə edilməyərək qızılı sadə xətti ifadələrin verilməsi alətin sadə olmasına baxmayaraq zövqlü dekorativ tərtibata məxsus olduğunu göstərir. Digər bir qoşanağara isə ətrafında ayaqların əhatəsində sıxılaraq iri və kiçik formaların yan-yana verilməsi ilə həll edilmişdir. İki qədəhəbənzər elementlərin ətrafı parlaq gümüşü səthlə əhatələnmişdir. Digər bir qoşanağaranın forması isə daha qədim effektini üzərindəki heyvan dərisinə Qobustan qaya rəsmlərinin şərti element təsvirlərinin verilməsi ilə maraq doğurur.

Bir başqa qoşa nağara nümunəsi isə alt qismindən dar gələrək yuxarıya doğru genişlənir. Onun iplərlə bərkidilmiş üst hissəsi alt qisimdən özünü aydın bəlli edən dekorativ həlli ilə diqqəti cəlb edir. Bu əsasən alətin rəng həlli ilə də əlaqədardır. Qırmızı fon üzərində yaşıl sarı kimi çalarlarda verilmiş real çiçək təsvirləri onun daha şux dekorativliyini meydana çıxarmışdır. Alətin üzərində bərkidilmiş iplər də

sıra ilə üz hissədə birləşdirilərək ona fərqli estetik dəyər bəxş etmişdir. Qoşanağaralardan bəziləri daha yastı formada sanki bir qədər də üst və at hissələrdən yastılaşdırılmış dairəvi şəkildə olaraq üst qisimdən bir qədər qalın sadə, adi iplə bərkidilərək həll edilir. Belə nümunələrə daha çox səthinin hər hansı bir elementin istifadəsi olmadan tünd ağac fakturaya malik sadə formada daha sıx şəkildə rast gəlinir.

Araşdırma zamanı qoşanağaraların əslində demək olar ki, bütün Şərq xalqlarının musiqi alətləri sırasında yer aldığını görürük. Bir qədər quruluşunda göstərdiyi fərqlərlə yanaşı, həm də üzərində yer aldığı dekorativ tərtibat da onların milli ənənəvi xüsusiyyətlərini meydana çıxardır. Məsələn, nümunə üçün Hindistana məxsus tabla adı ilə tanınan musiqi alətini göstərmək olar. Hətta müasir dövrümüzdə belə yaranmış belə nümunələrdə birini nəzərdən keçirdiyimizdə onun həm forma, həm də dekor tərtibatı baxımından ənənəviliyi daşıdığını görürük. İki yan-yana verilmiş elementlər demək olar ki, tamamilə fərqli formada olaraq, görünüş baxımından heç bir əlaqə yaratmırlar. Böyük ölçüdə olan hissə daha oval formada, parlaq qızılı səth üzərində stilizə olunmuş gül elementləri, mərkəzində verilmiş dairənin daxilində sadə paxlava ornamenti ilə həll edilmişdir. Burada həm də material fərqi də diqqəti cəlb edir. Qoşanağaranın böyük qismi metaldan hazırlandığı halda, onun ikinci hissəsini təşkil edən bir qədər gövdəsi daralmış element isə ağac materialdan həyata keçirilmişdir. Onun mərkəzində əhatələnmiş qarğıya bənzər elementlər əm də dekor xarakterini daşıyır.

Azərbaycan zərb alətləri içərisində dəf xüsusi əhəmiyyət daşıyır. Tarixinin eyni zamanda orta əsrlər miniatürlərində musi¬qi məclislərində təsvir edilmiş əsərlərdə zərb alətləri qrupları sırasında araşdırma imkanı əldə etdiyimiz bu element orta əsrlərdən Azərbaycan musiqisində xüsusi yerə sahib olmuşdur. Dəflərin forma quruluşlarına, onların dekorativ tərtibatına gəldikdə isə burada əsasən bəzək elementlərinin ətraf haşiyədə işlənməsi ənənəvidir. Bu ənənəviliyin dövrümüzə qədər qorunması çağdaş elementlər üzərindəki araşdırma zamanı öz təsdiqini tapır. Misal olaraq, belə nümunələrdən birinə diqqət etdiyimizdə kənarda beş hissədə verilmiş çıxıntıların ara sahələrində sadə çərçivələr arasında yer almış şəbəkə elementləri diqqəti cəlb edir. Aşağı haşiyədə isə qara fon üzərində qızılı rəngli xırda altıbucaqlı ulduz təsvirləri sistemli olaraq sıralanmışdır. Əsasən balıq dərisindən hazırlanan üz hissədə belə rəng effektinə diqqət yetirilərək burada çalarların yaratdığı ləklərlə onun estetik planda həll edilməsinə əhəmiyyət verilmişdir.

Digər bir Azərbaycan dəf musiqi alətinin isə dekorativ həlli zamanı sədəfdən istifadə edilmişdir. Ümumiyyətlə dəflərin sağanağı əsasən qoz ağacından hazırlanır ki, burada da təbii rəng effektinin bir qədər qorunması, onun daha zövqlə hazırlanmasına təminat verir. Qeyd edilən alətin də tünd səthi üzərində parlaq sadə rombla-

rın kvadratlar arasında verilməsi, haşiyə zolağında isə cərgə ilə düzülmüş paxlava və rombların sistemli sıralanması musiqi alətinin sadə, lakin estetik tərtibatını meydana çıxardır.

Dəf musiqi aləti ilə kifayət qədər oxşarlıq təşkil edən digər element olan qavalı fərqləndirən onun daxili hissəsində yerləşdirilən halqaların olmasıdır. Halqalar adətən sadə formada həyata keçirilir ki, bu da alətin funksionallığı ilə bağlıdır. Bəzək elementləri isə dəfdə olduğu kimi yan bölümlərdə əsasən sadə ornamental xüsusiyyətlərlə özünü göstərir. Daha çox həndəsi ornament xüsusiyyətlərini meydana çıxardan qavalların üzərində bəzəklər daha sadə formada, xırda nöqtələr, romblar və yaxud kvadratlar, bəzən ulduzlar ilə dekor edilir. “Rusiya imperiyasının bölgələrdə hakimiyyəti ələ keçirdikdən sonra general Konstantin Petroviçin sifarişi ilə Mərkəzi Asiya xalqlarının hərtərəfli mədəniyyətlərinin araşdırılmasına həsr edilmiş 1860-cı ilə aid “Türküstan albomu”nun etnoqrafik hissəsində yer almış bir fotomaterialda milli geyimdə olan qadın musiqiçi əlində dəflə fotoya alınmışdır” [2]. Burada dəfin üz hissəsində verilmiş element diqqəti cəlb edir. Araba təkərini xatırladan elementin sanki musiqi alətinə fərqli bir abı-hava, məna bəxş etməsi danılmazdır. Burada söhbət sadəcə dekorativ tərtibatdan getmir, elementin həm də simvolik mahiyyət daşıması fikri də diqqəti cəlb edir.

Ümumiyyətlə, türkdilli xalqların musiqi həyatında dəfin müxtəlif ad ilə məlum olan fərqli formaları vardır ki, burada sadəcə cüzi detallar, bəzək elementləri onları bir-birindən fərqləndirir. Məsələn, Türkiyənin bendir adı ilə tanınan musiqi aləti Azərbaycana məxsus dəf aləti ilə oxşarlıq, hətta eynilik təşkil edir. Lakin klassik türk musiqisində, xüsusilə türk sufi musiqisində həm də dəf kimi tanınan bu zərb aləti Mərakeş ölkələrinə, əsasən də Mərakeş və Əlcəzairə məxsus formada həyata keçirilir. “Mərakeş ərəbcəsindən alınan bendir adı Türkiyədə 1980-ci illərdən sonra geniş istifadə olunmağa başlanmışdır. Bendir adının ərəblərə də fransız dilindən keçməsi də böyük ehtimaldır” [3]. Lakin üzərində türklərə məxsus nəbati elementlərin verilməsi onun milliliyini təsdiqləyir. Kiçik bəzək elementi kimi görülsə də böyük mahiyyəti ilə özünü təsdiq edən milli bəzək elementləri bu mənada öz istifadəsi ilə diqqəti cəlb edir. Plastik və ya dəridən hazırlanan belə nümunələrdən birinin dekorativ tərtibatı kənar haşiyənin düz ağac səthi üzərində verilmiş qara fonda həll edilən ensiz haşiyə zolağının qızılı rəngli zərif nəbati elementləri ilə zövq oxşayır.

Azərbaycan zərb musiqi alətlərindən digəri də dümbəkdir. Dümbək, Yaxın Şərqdə çox məşhur olan kiçik qədəh formalı əl nağarasıdır. Dumbak, darbuka, dombek, tombek kimi başqa adlarla da tanınır. Bu nağara üfüqi vəziyyətdə dizlərdə tutulur, əllər və barmaqlarla çalınır. Ümumiyyətlə, dümbək Yaxın Şərqdə yaransa da, tədricən Balkan dövlətlərinə və dünyanın digər hissələrinə yayılmışdır. Türk düm-

bəkləri Misir dümbəklərinə bənzəyir, lakin daha nazik metaldan hazırlanır. Bəzən daha yüksək səs üçün onlara cingiltilər də əlavə olunur.

Belə nümunələrdən tünd qara fonu üzərində ağ parlaq rənglərlə verilmiş bəzək elementlərini nəzərdən keçirək. Burada dekorativ tərtibatın konkret olaraq hər hansı bir milli mənsubiyyət daşımasından çox, onun fərdi usta yaradıcılığını meydana çıxardığını qeyd edə bilərik. Stilizə edilmiş nəbati və həndəsi elementlərin meydana gətirdiyi naxışlar bir qədər də şərq miniatürlərində yer alan haşiyə elementlərini xatırladır.

Azərbaycana məxsus dümbək nümunələrindən birinin zəngin dekorativ tərtibatı diqqəti cəlb edir. Orta hissəsi parıltılı mərmər effekti ilə verilmiş dümbəyin üzərindəki ornamental həll onun aşağı və üst qismində verilmiş haşiyə zolaqlarının bədii tərtibatı ilə bağlıdır. Bəzək elementləri əsasən həndəsi ornamentlərdən olaraq, tünd fon üzərində qızılı parlaqlığın yaratdığı səkkizguşəli ulduzların fərqli ölçü və formaları ilə həll edilmişdir. Digər bir dümbəyin dekorativ tərtibatı isə göy fon üzərində qanadlarını açmış tovuz quşunu əhatə edən sıx şəkildə verilmiş təbiətdən alınma bitki təsvirləri ilə həyata keçirilərək onun zənginliyini təqdim edir.

Ümumiyyətlə, Şərq zərb alətlərinin dekorativ tərtibatı üzərində aparılan araşdırma zamanı burada olduqca yaxın formaların üstünlük təşkil etməsini əsas hesab etmək olar.

**Ədəbiyyat siyahısı:**


1. Muğam Ensiklopediyası - Bas tar və ya Bəm tar
2. Kun Aleksandr L., 1840-1888 -http://dl.wdl.org/11114.png Галерея: http://www.wdl.org/en/item/11114/
3. https://www.derszamani.net/vurmali-calgilar-nelerdir-isimleri-ornekler.html



**Эмилия Эмиль кызы Янакиева**


## ХУДОЖЕСТВЕННО-ДЕКОРАТИВНЫЕ ОСОБЕННОСТИ ВОСТОЧНЫХ УДАРНЫХ МУЗЫКАЛЬНЫХ ИНСТРУМЕНТОВ


**Рекюме:** В статье дана конкретно краткая информация об особенностях художественного оформления ударных инструментов в ряду восточных инструментов, лаконичная информация об особенностях их строения и орнаментации. Раскрыта художественная структура многих музыкальных инструментов, таких как барабан, гобой, лаггути, бубен, на примерах сделаны краткие анализы для раскрытия темы.



**Ключевые слова:** музыка, декоративные элементы, декоративное оформление, ударные инструменты.

**Emilya Emil gizi Yanakiyeva**

## ARTISTIC-DECORATIVE FEATURES OF EASTERN PERCUSSION INSTRUMENTS

**Summary:** The article gives a short information about artistic features, structure and design of percussion instrunents among Eastern musical instruments.In order to open the theme there were analyzed percussion instruments on the baseof examples, such as naghara, dumbak, daf etc..

**Key words:** music, design elements, decorative structure, percussioninstruments

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**